**«Elm və həyat».**–2007.-№3-4.-S.21-23.

# İLK AZƏRBAYCANLI OFTALMOLOQ

## ƏBDÜLXALİQ AXUNDOV

**Rasim HACIYEV,**
*tibb elmləri doktoru, professor*

Əbdülxaliq Axundov Azərbaycanın ilk oftalmoloqlarından biridir. Onun barəsində məlumatları Kanadada yaşayan qızının məktubundan, eləcə də, ikinci nigahdan olan kiçik oğlu məşhur kinorejissor Ədhəm Qulubəyovdan almışam.

Azərbaycanın ilk professional oftalmoloqu Ə.Axundov 1890-cı ildə Almaniyada göz xəstəliyi ilə bağlı "Koloboma okuli" adlı kitab nəşr etdirmişdir. Hazırda kitabın fotosurəti Drezden kitabxanasında saxlanılır.

Əbdülxaliq Axundov 1863-cü ildə Bakının Qala kəndində anadan olub. O zamanlar geridə qalmış müsəlman əhalisi üçün gənclərin təhsili ilk növbədə Quranın öyrənilməsi ilə bağlı idi.

Əbdülxaliqin atası araba və furqonların metal hissələrinin ustası idi. O da hamı kimi oğlunu Quran kurslarına yazdırır. Əbdülxaliq nəinki Quranı bütünlüklə əzbər öyrənir, eyni zamanda ərəb dilini o səviyyədə mükəmməl mənimsəyir ki, oxuduğu mətni asanlıqla izah edə, hətta az-savadlı müəlliminin səhvlərini də düzəldə bilirdi. Vaxtilə Bakıda xüsusi komissiya fəaliyyət göstərirdi. Bu komissiyanın əlində tatar dilində köməkçi vəsait var idi, lakin komissiya üzvlərindən heç kim kitabın mətnindən baş aça bilmirdi. O zaman Əbdülxaliqin atası, komissiyanın üzvü kimi, öz oğlunu məsləhət gördü və bu seçim çox uğurlu oldu. Belə ki, onun köməyi ilə tatar dilindəki mətnlərin rus dilinə uğurlu tərcüməsi komissiyanın işini yüngülləşdirdi. Rus dili dərslərini Əbdülxaliq atasından gizli şəhər tərcüməçisi olan Serebryakovdan alardı.

Komissiyanın işinin müsbət nəticələrindən razı qalan şəhər qubernatoru minnətdarlıq əlaməti olaraq Əbdülxaliqin atasına onun hər hansı bir istəyini həyata keçirəcəyinə söz verdi. Əbdülxaliqin atası oğlunu realnı məktəbə düzəltməyi xahiş edir. Qubernator sevinclə bu arzunu həyata keçirmək üçün mümkün olan hər şeyi edəcəyinə söz verir, amma o zaman oğlan 15 yaşında olduğu üçün məktəb direktoru onu əlifba sinfinə götürə bilmir.

Onda qubernatorun xahişi ilə qərara alınır ki, gənc realnı məktəbdə müəllim köməkçisi vəzifəsində işləsin. Amma sonralar onu qubernatorun təkidi ilə gimnaziyaya keçirdirlər.

Qubernator Əbdülxaliqə tibbi təhsil almağı məsləhət görür. Əbdülxaliq gimnaziya kursunu 3-4 ilə bitirir. Ali təhsil almaq üçün Qərbi Avropanı seçir və 1888-ci ildə Bavariyanın Erlangen şəhərində tibb fakültəsini bitirir. O, dissertasiya işini alman dilində yazır.

Çar hakimiyyətinin qanunlarına əsasən, o, 1893-cü ildə Yuriyev şəhərindəki universitetin tibb fakültəsində əlavə olaraq dövlət imtahanı vermək məcburiyyətində qaldı. Onu da deyək ki, bu təhsil ocağı Rusiyada alman dilində olan yeganə universitet idi.

Əbdülxaliqin vətənə qayıtması böyük bir bədbəxtliklə üst-üstə düşür. Hindistandan başlayan vəba epidemiyası İranı keçərək Bakıya da gəlib çıxır. Şəhərdə ölüm kabusu | dolaşır. O zaman Bakıda həkimlər az idi, bəziləri də əhalini taleyin ümidinə qoyaraq qaçmışdılar. Əbdülxaliq Axundov iki rahibə bacının köməyi ilə xəstəliyin kökü kəsilənə qədər çalışırlar. Əbdülxaliqin bu cür fədakarlığı nəzərdən yayınmadı və hökumət onu saray rütbəsi ilə təltif etdi və bu rütbəyə əsasən o, Bakı Şəhər Dumasının həqiqi üzvü oldu.

Şəhər Dumasının həqiqi üzvü olandan sonra o, Rusiyada cüzamlı xəstələr üçün Leprazoriya adlanan xəstəxananın təşkil olunmasını tələb etdi. Belə ki, o zamanlar cüzamlı xəstələri arabalarla sərhəd məntəqələrinə qədər daşıyıb, ya fars sərhədlərinə, ya da Bessarabiyaya keçirirdilər. Cüzamlı xəstələr kazak şallağının köməyi ilə imperiyadan uzaqlaşdırılırdı. Təxminən elə o dövrlərdə Əbdülxaliq Bakıda, keçmiş dəlixananın əvəzinə, ilk dəfə olaraq ruhi xəstələr üçün xəstəxana, müasir mətbəə və aptek açdı. Onu da deyək ki, bunlar sonradan Ermans cəmiyyəti tərəfindən alınmışdır.

XX əsrin əvvəllərində Ə.Axundov Azərbaycan dilində "Əvvəli hənək, axırı dəyənək" adlı üçpərdəli komediyasını yazdı. Bu komediyanı o vaxtkı ziyalılar yüksək qiymətləndiriblər.

O, Birinci Dünya müharibəsi zamanı "Səadət" adlı xeyriyyə cəmiyyətinin yaradıcılarından biri olmuşdu. Cəmiyyətin orqanı "Səadət" jurnalının yaradılması üçün Tiflisdəki "Şərəf Komitəsi " ilə yazışmalara başladı. Amma təəssüf ki, heç bir müsbət nəticə əldə olunmadı. Yaxın Şərq ölkələrində məşhur olan yumoristik aylıq "Zənbur" jurnalı XX əsrin əvvəllərində Azərbaycan dilində bu cəmiyyət tərəfindən buraxıldı.

Əbdülxaliq Axundov 1914-cü ildə "Müalicə kitabı"nı, 1916-cı ildə "Uşaqların sağlamlığı", 1919-cu ildə "Həzm traktının xəstəlikləri" adlı elmi-kütləvi kitablarını yazıb. Bütün bu kitablar Bakıda onun mətbəəsində nəşr olunub.

Ə.Axundov revmatizmin müalicəsi üçün İrana gedən zaman yerli tacirlərin köməyi ilə imkansızlar üçün xəstəxana açır, eyni zamanda öz vəsaiti hesabına fars dilində qadın gigiyenasına həsr edilmiş kitabını, eləcə də Azərbaycan dilində tarixi romanını çap etdirir. Lakin İranda Azərbaycan dili qadağan olunduğu üçün bu və bir çox

kitablar yandırılır.

Onun şəxsi həyatı ilə bağlı bəzi məqamları oxucuların diqqətinə çatdırmaq istərdik.

Ə.Axundovun iki oğlu var idi: Yusif və Cahangir. Birinci nigahdan (Bakının nəzarətçisi Bıkovun qızı ilə evlənmişdi) olan Yusif Bakı Gimnaziyasını bitirib. Dert (Tartu) Universitetinin hüquq fakültəsində oxuyub. Berlin Universitetini bitirib. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan Xalq Komissarları Komitəsində çalışıb (narkom Mirzə Davud Hüseynov idi). Onun Aidə və Sürəyya adında iki qızı var idi. Hal-hazırda Aidə İngiltərədə, Sürəyya isə Hollandiyada yaşayır.

Cahangir Bakıda realnı məktəbi, sonra isə Lionda (Fransa) kimya fakültəsini bitirib. Tehranda sement zavodunda işləyib.

Ə.Axundovun ikinci nigahdan 6 uşağı olub. Onun arvadı Sürəyya Seyidova Mir Seyfəddin Seyidovun qızı idi. O, şərq dillərinin tərcüməçisi idi. Qraf Vorontsov-Daşkovun mətbəəsində işləyirdi. Ə.Axundovun qızı Aliyə hazırda uşaqları ilə birlikdə Kanadada yaşayır.

Uşaqların ən kiçiyi olan Ədhəm Qulubəyov (atalığının soyadı) Moskvada ali təhsil alıb (Qeyd edək ki, Ə.Axundov Təbrizə köçərkən həyat yoldaşı onunla getməkdən imtina edərək azyaşlı oğlu Ədhəm ilə Bakıda qalıb və Qulubəyova ərə gedib. Qulubəyov repressiya zamanı sürgün olunub və bir müddət keçdikdən sonra vəfat edib). Vətən müharibəsi əlili, əmək veteranıdır. "Azərbaycanfılm" kinostudiyasında çalışıb. Bir neçə bədii və sənədli filmlərin müəllifidir. İki övladı var: Əlibəy və Eldar.

Əbdülxaliq Axundov 1914-cü ildə "Müalicə kitabı"nı, 1916-cı ildə "Uşaqların sağlamlığı", 1919-cu ildə "Həzm traktının xəstəlikləri" adlı elmi-kütləvi kitablarını yazıb. Bütün bu kitablar Bakıda onun mətbəəsində nəşr olunub.

1920-ci ildə Əbdülxaliq Axundov Sovet hökumətini qəbul edərək hərbi qospitalda baş həkim işləyib. Sonradan vəziyyətin gərginləşdiyini hiss edib və Təbrizə köçüb. Bu işdə ona N.Nərimanov kömək edib.

Əbdülxaliq Axundov 1945-ci ildə Böyük Vətən müharibəsi qurtardıqdan sonra dünyasını dəyişib. Tehrandan bir az aralıda yerləşən Kulidə, İranın digər hörmətli adamları kimi şəhər qəbiristanlığında dəfn edilib.